# Müstəqilliyimizin 25-ci ildönümü qeyd olundu

Rayon ağsaqqallar şurası müstəqilliyimizin 25-ci ildönümü ilə əlaqədar tədbir keçirmişdir. Ağsaqqallar öncə Heydər Əliyev Parkında ulu öndərin abidəsi önünə gül-çiçək dəstələri düzmüş, dahi rəhbərin xatirəsinə ehtiramlarını bildirmişlər.



Sonra rayon ağsaqqallar şurasının qərargahında yığıncaq keçirilmişdir. Yığıncağı giriş sözü ilə ağsaqqallar şurasının sədri Nazim Mustafayev açmışdır. Nazim Mustafayev RİH-nin başçısı cənab Səbuhi Abdullayevin Beynəlxalq Ahıllar Günü münasibətilə rayon ağsaqqallarına təbrik məktubunu oxudu.

Müstəqillik Günü ilə əlaqədar danışmaq üçün söz təqaüddə olan müəllim Fərman Əzizliyə verildi. Fərman Əzizli qeyd etdi ki, ötən əsrdə iki dəfə Vətənimizə müstəqillik nəsib olub. 1918-ci ilin 28 mayında elan olunmuş birinci müstəqilliyimiz cəmi 23 ay davam etmişdir. Dünyada və keçmiş SSRİ-də baş verən siyasi-ictimai hadisələr nəticəsində keçmiş SSRİ-nin tərkibinə daxil olan bütün respublikalar kimi Azərbaycan da 1991-ci ilin oktyar ayının 18-də öz müstəqlliyinə qovuşdu. Həmin gün Azərbaycan Respublikasının Ali Soveti «Azərbaycan Respublikasının müstəqilliyi haqqında Konstitusiya Aktı»nı qəbul etdi. Müstəqilliyin ilk illəri çox ağır keçdi. Ancaq 1993-cü ilin iyulunda ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra vətənimizdə sakitlik, sabitlik bərpa olundu. İqtisadiyyatda inkişaf başlandı. Ulu öndərin vəfatından sonra onun layiqli varisi möhtərəm cənab İlham Əliyev ümummilli liderin yolunu çox böyük siyasi bacarıqla, uğurla davam etdirdi. Bu gün Azərbaycan bütün sahələrdə inkişaf etmiş, beynəlxalq aləmdə öz yerini tutmuş güclü dövlətdir.

Ağsaqqallardan Vaqif Abduləzizov, Niyazi Babayev, Ramazan Mustafayev, Cümşüd Abdullayev, Nurəddin Tağızadə və başqaları çıxış edərək müstəqilliyimizin 25-ci ildönümü ilə əlaqədar ürək sözlərini söylədilər.

Tədbiri rayon ağsaqqallar şurasının sədri Nazim Mustafayev yekunlaşdırdı.

**Q. CƏMALƏDDİNOĞLU.**

**İ. Vəlizadə.**

# Yeni ilk təşkilat yaradıldı

«Azərişıq» Şimal-Qərb Regional Elektrik Təchizatı və Satışı İdarəsində Yeni Azərbaycan Partiyasının ərazi ilk təşkilatı yaradılmışdır. Oktyabr ayının 21-də bu münasibətlə idarənin iclas zalında təsis yığıncağı keçirilmişdir.



Yığıncaqda idarədə çalışan 38 nəfər Yeni Azərbaycan Partiyası üzvü iştirak etmişdir,

Tədbiri idarənin rəisi İlham Hüseynov açmışdır. Söz Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı aparatının rəhbəri Elçin Tağıyevə verilmişdir. Elçin Tağıyev Yeni Azərbaycan Partiyasının yaranma tarixi və bügünükü fəaliyyəti barədə geniş məlumat vermişdir. Sonra «Azərişıq» Şimal-Qərb Regional Elektrik Təchizatı və Satışı İdarəsi ilk partiya təşkilatının idarə heyəti, ilk təşkilatın sədri və müavinləri seçilmişdir.

İlk təşkilatın 5 nəfərdən ibarət idarə heyəti, Sevda Muradova ilk təşkilatın sədri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının şura üzvü, partiya veteranı Qüdrət Səmədov ilk partiya təşkilatının yaranması münvasibətilə yığıncaqda iştirak edən YAP üzvlərini təbrik etmitş, uğurlar arzulamışdır.

Yeni Azərbaycan Partiyasının üzvləri Elvin Bayramzadə, Elxan Allahverdiyev, İlham Hüseynov və başqaları işlədikləri idarədə ilk təşkilatın yaradılmasına kömək göstərdiklərinə görə YAP Qəbələ Rayon Təşkilatı rəhbərliyinə öz minnətdarlıqlarını bildirmişlər.

***«Qəbələ».***

# Heyvandarlıq məhsulları istehsalı artır

***Rayonun iqtisadiyyatında ən böyük sahə aqrar sektordur. Bu da Qəbələnin coğrafi ərazisi, kənd təsərrüfatı üçün əlverişli iqlimi ilə bağlıdır. Ona görə burada tarixən əkinçilik, bağçılıq mədəniyyəti formalaşmış, maldarlıq inkişaf etmişdir.***



Heyvandarlıq gəlirli sahədir. Ət, süd məhsullarının istehsalı artıqca kəndlinin güzəranı, gündəlik yaşayış tərzi də yaxşılaşır. Bu sahənin inkişaf etdirilməsinə dövlət tərəfindən xüsusi qayğı göstərilir.

Odur ki, rayonumuzun heyvanlardarlıqla məşğul olan fərdi təsərrüfatları, fermerlər mal-qaranın, davarların baş sayını ilbəil artırmağa, heyvandarlıq məhsulları istehsalının səviyyəsini yüksəltməyə çalışırlar.

Hazırda rayonda iribuynuzlu mal-qaranın sayı 46.827 başa, qoyun və keçilərin sayı 189.315 başa, donuzların sayı isə 1093 başa çatdırılmışdır. Əlbəttə bu, rayon üzrə yaxşı göstəricidir. Qoyun və keçilərin baş sayının artırılmasında Laza, Qəmərvan, Yeni Dizaxlı, Əmirvan, Yenikənd, Zərgərli kəndlərinin, iribuynuzlu mad-qaranın sayının artırılmasında isə Nic qəsəbəsinin, Zalam, Bayramkoxalı, Çuxur Qəbələ və Kürd kəndlərinin əməkçiləri xüsusilə fərqlənirlər. Müqayisə göstərir ki, ötən ilin doqquz aylığın yekununa görə bu lin doqquz ayında süd, ət, yumurta və yun istehsalı xeyli artmışdır. Redaksiyaya verilən məlumata əsasən ötən doqquz ay ərzində rayon üzrə diri çəkidə 4589 ton ət, 29761 ton süd, 8 milyon 267 min ədəd yumurta, 482 ton yun istehsal olunmuşdur.

Qarşıdan qışlama gəlir. Heyvandarlar mal-qaranı, qoyun və keçiləri qışlamadan sağlam, gümrah çıxarmaq üçün ciddi hazırlıq işləri görüb başa çatdırıblar. Belə ki, mövcud tövlələr, qoyun kaşarları təmir olunub, kifayət qədər həm qüvvəli, həm də qaba yem tədarük ediblər.

***«Qəbələ».***

*Qışlamaya hazırlıq necədir?*

# Tədbirlər daha da gücləndirilməlidir

Qəbələdə qış uzun və soyuq keçir. Bir müddətdən sonra burada qızılı payız öz yerini rütubətli, qarlı-boranlı qış fəslinə verəcək, Rayonumuzun dərələri-təpələri, düzənlikləri qışın qar bəyazlığına bürünəcək. Təbiidir ki, qışın da gözəlliyi onun qarında, boranındadır. Bir şərtlə ki, bu soyuqlara, şaxtalara hazır olasan, onun gətirdiyi fəsadları vaxtında aradan qaldıra biləsən. Bu fəsildə əhalini ən çox narahat edən bəzi günlərdə elektrik enerjisi, təbii qaz təzhizatı zamanı yaranan fasilələr olur. Amma xidmət sahələrinin işçiləri bu ilki qışa ciddi hazırlaşdıqlarını, əhalinin təbii qaz və elektrik enerjisi ilə fasiləsiz təmin olunacağını bildirirlər.

**(Ardı 7-ci səhifədə).**

# Üzümçülük ən gəlirli sahədir

Ölkəmizdə müstəqilliyin ilk illərində bəzi səhlənkar adamların məsuliyyətsizliyi üzündən üzümçülük təsərrüfatına ciddi ziyan vuruldu. Kənd əməkçilərinin illər boyu ağır və çətin zəhməti sayəsində salınmış üzüm bağları dağıdıldı, emal müəssisələri ləğv edildi. Əhali isə bu gəlirli sahələrindən məhrum olundu.

Ulu öndər Heydər Əliyev ikinci dəfə ölkədə siyasi hakimiyyətə qayıtdıqdan sonra üzümçülük təsərrüfatının bərpası üçün lazımi şərait yarandı və bu istiqamətdə bir-birinin ardınca çox mühüm qərarlar qəbul olunaraq həyata keçirildi.

Dağ rayonu Qəbələdə də üzümçülük təsərrüfatının yaradılmasına və inkişaf etdirilməsinə sahibkarlar tərəfindən maraq artdı. Rayonda üzümçülüyün bərpasında ilk təşəbbüsə qoşulan «ASPİ Aqro» Məhdud Məsulliyyətli Cəmiyyətin kollektivi olmuşdur.

2007-ci ildən sonra fəaliyyətə başlayan bu cəmiyyət Quşlar kəndinin ərazisindəki «Baba Qəmbər» adlanan ərazidə ilk dəfə 224 hektar üzüm bağı saldı. Plantasiyalara xaricdən gətirilərək əkilib becərilən tənəklər həm süfrə, həm də şərabçılıq sənayesi üçün ən məhsuldar sortlardandır. Barvermə qabiliyyəti yüksək olan tənəklərdən istehsal olunan məhsulların adı dünyada məşhurdur.

Zaman geçdikcə burada üzüm plantasiyalarının sahəsi xeyli genişləndirilmiş, yeni üzüm sortlarının əkilməsinə üstünlük verilmişdir. Hazırda burada 343 hektar üzüm bağları var ki, bu bağların 199,5 hektarı süfrə, qalanı isə texniki sortlardır.



Bu il bağlardan həm sənaye, həm də süfrə üçün bol məhsul yığılıb. «ASPİ Aqro» MMC-dən bizə verilən məlumata görə bağlardan 1057 ton üzüm hasil olunub. Bundan 1000 tondan artıq məhsul şərab istehsal etmək üçün emal zavoduna göndərilmişdir. Süfrə üzümü isə yerli və respublikanın müxtəlif bazarlarına satışa göndərilmişdir. Rəqəmlərdən aydın olur ki, bu il burada əvvəlki illərdən xeyli çox üzüm istehsal olunub. Həmin müəssisədə 80 nəfər daimi işlə təmin edilib. Əkin, becərmə, məhsul yığımı mövsümlərində işçilərin sayı 200-250 nəfərə çatır. Burada çalışanlar yaxşı əməkhaqqı alır və normal əmək fəaliyyəti göstərmək üçün onlara hər cür şərait yaradılıb. Mütəxəssislər və fəhlələr onlara yaradılan şəraitdən razılıq edirlər.

**A. CƏLALOĞLU.**